**Qeyri-leqal miqrantlarla da əmək müqaviləsi bağlanır**

Azərbaycana işləmək üçün gəlmiş əcnəbilərlə əmək münasibətlərinin rəsmiləşdirilməsi sahəsində ciddi tədbirlər görülür

Dinamik inkişaf yolunda olan Azərbaycanda investisiya mühitinin cəlbediciliyi, çoxsaylı istehsal müəssisələrinin yaradılması yolu ilə yeni iş yerlərinin açılması, sahibkarlığın inkişafı, tikinti-quruculuq, abadlıq işlərinin geniş vüsət alması, habelə region əhəmiyyətli mühüm energetika və nəqliyyat layihələrinin reallaşdırılması respublikaya son illərdə miqrant axınının da sürətlənməsinə səbəb olmuşdur. Azərbaycanın bir sıra dövlətlərlə vizasız gediş-gəliş rejiminin mövcud olması səbəbindən respublika ərazisindən tranzit qaydasında keçən, qısa müddətə gələn, üçüncü dövlətlərə getməyə cəhd edən və ya qanuni əsaslar olmadan daimi yaşayan əcnəbilərin sayı getdikcə artır.

*Azərbaycanda iş axtaran əcnəbilərin sayı artır*

Yaşadığı ölkələrdə normal yaşayış səviyyələrini təmin edə bilməyən insanların respublikamızda leqal və qeyri-leqal yollarla işləməyə can atmaları daxili əmək bazarının qorunması, işəgötürənlərlə əcnəbi işçilər arasında münasibətlərin rəsmiləşdirilməsi, onların sosial sığorta ödənişlərinə, vergilərə cəlb olunması sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsini zərurətə çevirmişdir. Qeyri-qanuni miqrasiyaya qarşı mübarizə işsizlik səviyyəsinin müəyyən həddə saxlanması baxımından da vacibdir. Bu reallığa prinsipial mövqedən yanaşan Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında demişdir: «Azərbaycan nadir inkişaf templərini nümayiş etdirir. Əlbəttə ki, buraya gəlmək, işləmək istəyənlərin sayı artır, Dövlət Miqrasiya Xidməti bütün lazımi tədbirləri görür. Bu tədbirlər daha da səmərəli olmalıdır ki, biz ilk növbədə, Azərbaycan vətəndaşlarının əmək bazarında işlə təmin edilməsi məsələlərinə baxaq, onları tamamilə həll edək».

*Miqrasiya sahəsində «bir pəncərə»*

İqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində respublikada miqrasiya proseslərinin daha səmərəli üsul və vasitələrlə, vahid dövlət orqanı tərəfindən tənzimlənməsi məqsədilə hələ 2007-ci ildə yaradılmış Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti son illər bu istiqamətdə müəyyən nizamlayıcı tədbirlərin həyata keçirilməsinə nail olmuşdur. Dövlət başçısı İlham Əliyevin 4 mart 2009-cu il tarixli «Miqrasiya proseslərinin idarə olunmasında «bir pəncərə» prinsipinin tətbiqi haqqında» fərmanı isə ölkədə miqrasiya proseslərinin daha çevik və işlək mexanizmlər əsasında idarə edilməsinə, bu sahədə operativliyin təmin olunmasına, həllini gözləyən problemlərin aradan qaldırılmasına imkan yaratmışdır.

Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 24 may 2011-ci il tarixli fərmanına müvafiq olaraq, DMX-nin rəsmi internet səhifəsində xüsusi elektron xidmət bölməsi yaradılmış, həmin ilin sentyabrından elektron xidmətlərin göstərilməsinə başlanılmışdır.

*İnzibati tədbirlər gücləndirilir*

2011-ci il ərzində qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirləri gücləndirilmiş, əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olma, habelə müvəqqəti və daimi yaşama qaydalarının pozulması halları aşkar edilərək qarşısı alınmışdır. Keçirilmiş tədbirlər nəticəsində 12.530 əcnəbi tərəfindən inzibati qanunvericiliyin tələblərinin pozulması halları müəyyən olunmuşdur. Müəyyən əsaslar olduğu üçün 2.338 nəfərin ölkə ərazisində yaşamaları leqallaşdırılmış, 8.058 nəfərin isə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müddəalarında nəzərdə tutulmuş qaydada 48 saat ərzində ölkədən çıxarılmasına qərar verilmişdir.

Xidmətdən verilən məlumatda, həmçinin, bildirilir ki, miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qeyri-leqal miqrasiyanın qarşısının alınması ilə bağlı tədbirlər 2012-ci ildə də davam etdirilmişdir. İşəgötürənlərin fərdi icazə almadan əcnəbi və ya vətəndaşlığı olmayan şəxsləri haqqı ödənilən əmək fəaliyyətinə cəlb etməsi hallarının aşkar edilərək qarşısının alınması məqsədilə xidmət əməkdaşları sahibkarlıq subyektlərində yoxlamaları davam etdirmişlər. Təkcə iyul ayı ərzində 1.859 əcnəbi və vətəndaşlığı olmayan şəxs tərəfindən Azərbaycan Respublikasında olma, habelə müvəqqəti və daimi yaşama qaydalarına əməl etmədən inzibati qanunvericiliyin

tələblərini pozma halları müəyyən edilmişdir. İnzibati Xətalar Məcəlləsinin 339 və 340-1-ci maddələrinə müvafiq olaraq, 298 nəfərə cərimə tətbiq edilməklə onların ölkə ərazisində yaşamaları leqallaşdırılmışdır. 1.393 əcnəbi barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərk etmə, 108 əcnəbinin isə inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılmaları barədə qərarlar qəbul edilmişdir.

*Qeyri-qanuni miqrantlar bölgələrə də ayaq açır*

Ümumilikdə, iyul ayı ərzində DMX-yə əcnəbi və vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkədə müvəqqəti olma müddətlərinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, vətəndaşlığa qəbul, xitam, bərpa, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, əmək fəaliyyətinin həyata keçirilməsi üçün fərdi icazələrin verilməsi ilə bağlı 4.676 müraciət daxil olmuşdur. Müraciətlərin hər biri qanunvericiliyin tələblərinə uyğun araşdırılmış və müvafiq qərarlar qəbul edilmişdir.

Qeyri-leqal miqrantlara təkcə Bakı şəhərində deyil, respublikanın digər şəhər və rayonlarında da geniş rast gəlinir. DMX ötən ay Bakı və Gəncə şəhərlərində, həmçinin Bərdə, Ağcabədi, Yevlax, Şəki, Göygöl, Tovuz, Qazax, Xaçmaz və Şabran rayonlarında qanunvericiliyin tələblərinə zidd olaraq fərdi icazə alınmadan əmək fəaliyyətinə cəlb edilmiş, eyni zamanda, ölkədə olma və yaşama qaydalarını pozmuş əcnəbiləri aşkarlayaraq məsuliyyətə cəlb etmişdir.

S.MUSTAFAYEV